BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№2 *Sosial-siyasi elmlər seriyası* 2008

# TARİXİ ŞÜUR VƏ TARİXİ İDRAKIN NİSBƏTİ

**E.N.HÜSEYNOV**
***Bakı Dövlət Universiteti***

Cəmiyyətin tarixi həmişə müxtəlif tədqiqatların mərkəzində dayanıb. Cəmiyyətin tarixinin elmi cəhətdən öyrənilməsi antik dövrə təsadüf etsə də, tarix adı altında heç də həmişə eyni şey nəzərdə tutulmamışdır. Hətta yarandığı dövrdən etibarən belə «tarix» sözü iki-geniş və dar mənalarda işlənirdi. Geniş mənada tarix, ümumiyyətlə, bütün təsfirləri əhatə edirdi. Aristotel, tarix deyəndə həm də təbiət hadisələrinə dair məlumatların sistematik izahını başa düşürdü. Məsələn, onun zoologiyaya aid əsəri belə adlanırdı: «Heyvanların tarixi». Dar mənada isə tarix deyəndə keçmişdə baş verən hadisələrə dair hekayələr nəzərdə tutulurdu (5, s. 7). Amma təbii ki, müasir dövrdə tarix deyərkən artıq bu mənalar nəzərdə tutulmur. Ümumiyyətlə, «tarix» anlayışının adi – gündəlik şüur səviyyəsində aldığı mənaları bir kənara qoysaq, müasir elmi ədəbiyyatda onun bir neçə mənası ilə rastlaşırıq (3, s. 14–15). Konkret bu məqalə çərçivəsində bizi «tarix» anlayışının bütün mənaları deyil, yalnız iki mənası maraqlandırır. Bunlardan biri rarix deyilərkən nəzərdə tutulan tarixi şüur, digəri isə tarixi idrakdır. «Tarix» anlayışının bu mənalarına, yəni tarixi şüur və tarixi idrak anlayışlarına da müxtəlif yanaşmalar mövcuddur. Belə ki, bəzən bu anlayışlar bir–birindən fərqləndirilmir, bəzən tarixi şüur, bəzən isə tarixi idrak anlayışı digərinə nisbətən daha geniş anlayış kimi qəbul edilir. Bu anlayışlar arasındakı qarşılıqlı əlaqəni müəyyən etmək üçün ilk əvvəl onlardan birini, tarixi şüuru nəzərdən keçirək.

Tarixi şüur anlayışına müxtəlif ədəbiyyatlarda müxtəlif təriflər verilib. Bu təriflər nə qədər dərin məna daşısalar da biz, əlbəttə, onları bu məqalə çərçivəsində bir – bir sadalamaq fikrində deyilik. Bu səbəbdən də ümumi təsəvvür yaratmaq məqsədilə aşağıdakı tərif ilə hələlik kifayətlənirik: «Tarixi şüur kortəbii surətdə yaranan, yaxud elmin yaratdığı elə müxtəlif formaları əhatə edir ki, bu formalarda cəmiyyət öz keçmişini dərk edir (təkrar yaradır və qiymətləndirir), başqa sözlə, bu formalarda cəmiyyət müəyyən zamanda öz hərəkətini təkrar yaradır» (3, s. 15). Amma tarixi şüur və tarixi idrak anlayışlarının qarşılıqlı əlaqəsini izah etmək üçün hər iki anlayışın mahiyyətinə daha dərindən nüfuz etmək lazımdır. Problemə yanaşma zamanı yaranan ilk təsəvvürə əsasən bu anlayışlar arasındakı qarşılıqlı əlaqənin «şüur- idrak» məntiqi sxemi üzrə təhlili daha məqsədəuyğun görünür. Amma problemə daha dərindən nüfuz edərkən bu məqalə çərçivəsində yuxarıdakı məntiqi sxem elə də məqsədəuyğun deyil. Əvvəla, fəlsəfədə şüur probleminin özü daim mübahisələrə səbəb olmuşdur və bu mübahisələr indi də davam edir. Bu mübahisələr isə elə şüurun öz mahiyyətindən doğur. Belə ki, şüuru ölçmək və kəmiyyət

baxımından ifadə etmək, bilavasitə müşahidə etmək mümkün deyil. Bu isə təəccüblü deyil, çünki şüur nə enerjiyə, nə də kütləyə malik deyil. Heç bir kəmiyyət göstəricisinə malik olmayan şeyi isə, təbii ki, müşahidə etmək və ya kəmiyyət baxımından ifadə etmək mümkün deyil. Təəccüb doğuran fakt isə odur ki, insan beyni işləyərkən maddi siqnallar qəbul edir, maddi əsasa malik olan enerji sərf edir, beyində ölçülməsi mümkün olan proses baş verir. Bəs necə olur ki, bu maddi əsasa malik olan proses qeyri – maddi olan şüur aktını törədir ? Sərf edilən maddi əsas və enerji nəyə çevrilir? Məlum olduğu kimi, şüur fenomeni bu gün bir sıra humanitar və təbiətşünaslıq elmləri – sosiologiya, psixologiya, fiziologiya, semiotika, kibernetika və s. tərəfindən öyrənilir. Amma bu elmlərdən heç biri hələlik nə yuxarıdakı suallara, nə də ümumiyyətlə, şüur fenomenini tam izah edəcək məsələlərə cavab verməyib. Bizim məqsədimiz, əlbəttə, diqqəti şüur fenomeninin bu gün müəmmalı olan tərəflərinə cəlb etmək deyil. Bu barədə bütün fəlsəfə dərsliklərində ətraflı bəhs edilib. Demək istədiyimiz odur ki, bu məqalə çərçivəsində əvvəl bu qədər müəmmalı olan şüur fenomenini izah etmək, sonra şüur və idrak anlayışları arasındakı qarşılıqlı əlaqələri izah etmək, daha sonra isə əsas məsələni – tarixi şüur və tarixi idrak anlayışlarını təhlil etmək praktik cəhətdən qeyri – mümkündür.

İkincisi, şüur fenomenini izah etmək nə qədər çətin olsa da burada bəzi məqamlar tədqiqatçıların əksəriyyətində şübhə doğurmur. Belə ki, şüur insan beyninin fəaliyyəti ilə bağlıdır. Daha konkret şəkildə desək, şüur aktı üç ünsürün vəhdətindən ibarətdir: hiss üzvlərimiz vasitəsilə bizə müyəssər olan siqnallar, həmin informasiyanı qəbul edən, işləyən, sistemləşdirən kənar sinir sistemi və baş-beyin və nəhayət, beyinin işləmə prosesinin nəticəsi olan inikas aktı. Tarixi şüura gəldikdə isə o, ictimai şüurun bir forması olub yuxarıda təsvir etdiyimiz şüur aktı ilə müqayisədə sadəcə olaraq «abstraksiyadır». Bu yalnız tarixi şüura deyil, ictimai şüurun bütün formalarına aiddir. Belə ki, ictimai şüur anlayışından ilk dəfə K.Marks və F.Engels tarixin materialist izahı üçün istifadə edib. İctimai şüur – ictimai varlığın əks olunduğu duyğu, baxış, ideya, nəzəriyyələrin mürəkkəb sistemidir (8, s. 23). İctimai şüurun bütün formalarinın, o cümlədən tarixi şüurun daşıyıcısı kimi bütövlükdə cəmiyyət və buradakı digər böyük sosial qruplar (millət, xalq, sosial siniflər) çıxış edir. Bu mənada ictimai şüur fərdi şüurdan fərqlənir. İctimai şüur ilə fərdi şüur arasındakı əlaqə ümumi ilə təkcə arasında olan əlaqə kimidir. Təkcələr (fərdi şüur) ümumiyə (ictimai şüura) aparan yoldur, ümumi isə təkcələrdə təzahür edir və əslində məntiqi baxımdan abstraksiyadır. Ümumiyyətlə, gerçəklikdə «insan» deyil, yalnız konkret ayrı- ayrı insanlar mövcud olduğu kimi, reallıqda da əslində ictimai şüur deyil,ayrı- ayrı fərdlərin şüurları mövcuddur. Bir qədər əvvəl nəzərdən keçirdiyimiz şüur aktı isə əslində ayrı – ayrı insanların adı ilə bağlıdır. Elə hesab edirik ki, S.S.Frankdan sitat gətirəcəyimiz aşağıdakı mülahizələr fikirlərimizə daha çox aydınlıq gətirə bilər: «Əgər biz cəmiyyətin dərk edilməsində hər hansı dumanlı mistika və ya mifologiyada batıb qalmaq istəmiriksə, onda, ümumiyyətlə, orada məhz birgə həyat yaşayan və öz aralarında qarşılıqlı əlaqədə olan ayrıca insanların cəmindən başqa digər nə isə görə bilərikmi? Tam kimi cəmiyyətə dair, məsələn, «ictimai iradə», «xalqın ruhu», kimi bütün danışıqlar mahiyyətcə mənasız və qeyri-müəyyən, ən yaxşı halda yalnız hər hansı məcazi, metaforik mənaya malik frazalardır. Fərdidən başqa heç bir digər «ruh» və ya «şüur» təcrübədə

bizə verilməyib və elm bununla hesablaşmaya bilməz; ictimai həyat son nəticədə fikir və istəklərdən irəli gələn fəaliyyət cəmindən başqa digər şey deyil; yalnız ayrıca insanlar fəaliyyət göstərə, arzu edə və düşünə bilərlər» (9. s. 32). Bütün bunları deməkdə, o cümlədən bu sitatı gətirməkdə bizim məqsədimiz diqqəti vacib bir məqama yönəltməkdir: sözün əsl mənasında şüur aktı yalnız ayrı–ayrı insanlar ilə əlaqədardır və bu səbəbdən də «şüur–idrak» məntiqi sxemi üzrə tarixi şüur və tarixi idrak anlayışlarını izah etmək məqsədəuyğun deyildir. Tarixi şüur ictimai şüurun bir formasıdır və ictimai şüurun digər formaları kimi onun da daşıyıcısı bütövlükdə cəmiyyət və digər böyük sosial qruplardır. Bu səbəbdən də tarixi şüur anlayişını izah edərkən ilk növbədə onu ictimai şüurun digər formaları ilə müqayisə etmək və onlar arasındakı yerini müəyyən etmək daha əlverişlidir.

Elmi ədəbiyyatda bəzən ictimai şüurun formaları arasında tarixi şüurun adı çəkilmir. Bu səbəbdən əvvəlcə, ictimai şüur formaları arasında tarixi şüurun yerinə nəzər salaq. Fəlsəfə dərsliklərində ictimai şürun aşağıdakı formaları göstərilir: (12, s. 477-79) fəlsəfi, siyasi, hüquqi, əxlaqi, estetik, dini və elmi. Müxtəlif dərsliklərdə və tədqiqat əsərlərində tarixi şüurun adının çəkilməməsinin ən azı iki səbəbi ola bilər: ya həmin müəlliflər tarixi şüuru, ümumiyyətlə, nəzərə almırlar, ya da onu, çox güman ki, elmi şüurun tərkib hissəsi kimi qəbul edirlər. Məsələnin birinci tərəfinə nəzər salaq: əgər biz cəmiyyətin keçmişini bir «reallıq» kimi qəbul ediriksə və bu «reallığı» öyrənməyə çalışırıqsa, onda bu ictimai şüurun konkret bir formasında öz əksini tapmalıdır. Deməli, tarixi şüurun nəzərə alınmaması (hətta konkret olaraq bu anlayışı işlətməsək belə) əslində mümkün deyil. Bu anlayışın isə yalnız bir halda işlədilməsinə ehtiyac qalmır: bunun üçün tarixi yuxarıda adları çəkilən ictimai şüur formalarından birinin tərkibi hissəsi kimi qəbul etmək lazımdır. Bu ictimai şüur formalarına adları çəkilən elmi tədqiqatlarda verilən təriflərdən çıxış etsək, onda tarixi olsa-olsa yalnız elmi şüurun tərkib hissəi kimi qəbul etmək az-çox məqsədəuyğun olardı. Deməli, məsələnin ikinci tərəfi diqqət mərkəzinə gəlir. Fikrimizcə, belə düşünmək, yəni tarixi şüuru tamamilə elmi şüurun tərkibinə daxil etmək bir qədər anlaşılmazlıq yaradır. Əgər tarixin öyrənilməsi zamanı müəyyən kateqoriyalardan, nəzəriyyələrdən və s. istifadə edilməsi səbəbindən onu sırf elm kimi qəbul ediriksə, onda gərək siyasəti, hüququ və s. də tamamilə elmi şüürun tərkibinə daxil edək. Halbuki biz həmin ədəbiyyatlarda «elmi şüur» anlayışı ilə yanaşı «siyasi şüur», «hüquqi şüur» anlayışlarına da rast gəlirik. Amma siyasət, huquq və s. Cəmiyyətin inkişafının hər bir mərhələsində öyrəndikləri obyektlərlə qarşılaşdırıla bildikləri halda, tarix bu imkanlardan məhrumdur. Bu mənada əgər onların hamısını sözün geniş mənasında elm kimi qəbul etsək, onda tarix daha «mücərrəd» xarakter daşımış olar. Elə konkret olaraq tarixi tədqiqatların özləri də sosial tədqiqatlar sırasına aid olsa da bir sıra özünəməxsus xüsusiyyətlərə malikdir. Bunlardan bəzilərini qeyd edək:

1) tədqiqat predmetinin müşahidəsizliyi, yəni tarixçi keçmiş hadisələri empirik cəhətdən dərk etmək imkanlarından məhrumdur;

2) tədqiqat predmetinin eksperimentsizliyi, yəni tarixçi tarixi hadisələrin vizual sosial eksperimentini apara bilməz və s. (ətraflı məlumat üçün 7, s.244).

Digər elmi tədqiqatların ilk mərhələsini təşkil edən müşahidə metodu əslində tarixi tədqiqatlarda başqa cür çıxış edir, yəni tarixi

müşahidə keçmiş hadisələrin yenidən qurulması üçün tarixi mənbələrin elmi tənqidi ilə başlayır. Lakin burada mühüm əhəmiyyət daşıyan məqam tədqiqatçının şəxsi keyfiyyətləri, yəni ümumi-nəzəri və professional hazırlığı, dünyagörüşü və s. ən əsası isə hansı sosial sinfə, millətə və s. mənsub olmasıdır. Onda belə bir sual yaranır: tarixi birliyi elm hesab etmək nə dərəcədə doğrudur? Bu suala birmənalı və qəti cavab vermək çox çətindir, amma bu suala veriləcək cavabdan çox şey asılıdır. Əgər tarixin elmi cəhətdən öyrənilməsi mümkün deyilsə, onda bir tarixi şüur və tarixi idrak anlayışlarının bir-birindən fərqləndirilməsinə ehtiyac qalmır.

Ümumiyyətlə, tarixi bilik uzun müddət incəsənətin bir növü kimi qəbul edilib və siyasi, həmçinin etika fənlərinin əlavəsi kimi yardımçı funksiya daşıyıb. Yalnız XIX əsrdə tarixi bilik yeni məzmun almağa başlayır. Bunun isə aşağıdakı bir sıra səbəbləri var:

1. XVI əsrin sonlarından və xüsusən də, XVII-XVIII əsrlərdən etibarən Avropada yeni mexaniki təbiətşünaslıq, riyaziyyat və eksperimental elmlər eyni zamanda sürətlə inkişaf etməyə başlayır. Bu elmlərin irəli sürdükləri hipotezlər eksperimentlərlə təsdiq edilir. Buradakı qanunları son dərəcə dəqiqliklə ifadə etmək mümkündür və onları həmişə praktik cəhətdən tətbiq etmək də olar. Bu dövrün əsas mütəfəkkirləri-F.Bekondan tutmuş İ.Kanta kimi-təbiətşünaslığa böyük ümidlər bəsləyirdi. Onların fikrincə, bu insanı təbiət üzərində hökmdara çevirəcək, cəmiyyəti rasionallaşdıracaq, bəşəriyyəti bir sıra qlobal sosial problemlərdən xilas edəcək. Amma artıq XIX əsrdə aydın olur ki, təbiətşünaslığın və texnikanın inkişafı bu sosial problemləri aradan qaldırmır. Mütəfəkkirlər tədricən cəmiyyətə dair biliklərə, hər şeydən əvvəl tarixi biliklərə böyük diqqət yetirməyə başlayırlar. Amma tarixi biliklərdən cəmiyyətin öyrənilməsi üçün yalnız bir şərt ilə geniş şəkildə istifadə etmək olardı-bunun üçün tarixi biliklərə elm statusu verilməli idi.

2. Orta əsrlərdən yeni dövrə kimi müxtəlif tarixi məlumatlar həmişə praktik cəhətdən hüquqi və siyasi məsələlərin həlli üçün istifadə edilirdi. Yeni dövrdən etibarən isə siyasi praktikada tarixi arqumentlərin istifadəsi onların müvafiq təsdiqi olmadan mümkün deyildi. Hüquqşünas və ya siyasətçi ona təqdim edilən tarixi məlumatların mötəbər olmasını tələb edirdi. Bu isə digər tərəfdən tarixi tədqiqat metodlarının elmiliyi məsələsinin, son nəticədə isə həm də tarixi biliyin elmiliyi probleminin meydana çıxmasına səbəb oldu.

3. Tarixi biliyin statusu məsələsi tarixi metodların və tarixi yanaşmanın elmi idrakın digər sferalarına nüfuz etməsi ilə xüsusi əhəmiyyət kəsb etməyə başladı. XIX əsrdə tarixilik tədricən linqvistikanı, iqtisadiyyat elmlərini, biologiyanı, bundan daha əvvəl isə hüquq elmlərini əhatə etmişdi. Təbii ki, bu da bütövlükdə tarixi biliyin elmi statusunun təsdiq edilməsinə gətirib çıxardı (10, s 110-114).

Göründüyü kimi yaranmış obyektiv şərait səbəbindən tarixi bilik XIX əsrdən etibarən tədricən müəyyən dərəcədə elm statusu qazanmağa başlayır. Amma ümumiyyətlə, tarix həmişə təbiətşünaslıq elmləri ilə müqayisədə fərqli elm statusuna malik olub. Bu ilk növbədə «elm» anlayışını hamının eyni şəkildə qəbul etməməsinin nəticəsidir. Məsələn, R.C.Kollinqvud bu anlayışı belə qəbul edir: «Elm axtarışdır, bu mənada tarix də elmdir... elmlər axtardıqları müxtəlif növ şeylərə görə bir-birindən fərqlənir. Tarix nəyi axtarır? Mən cavab verirəm: res gestae, yəni insanların keçmişdə etdiyi hərəkətləri...» (6, s.13). Amma təbii ki, bu

«elm» anlayışının çox zəif izahıdır. Bunun üçün elm кonsepsiyasını dəqiqləşdirməк lazımdır: əgər həm кeçmişdə, həm də indi elm hesab edilən biliкlər sisteminin inкişafına nəzər salsaq, onda bəzi dəyişməyən fiкirləri müşahidə edə biləriк. Bunlardan biri odur кi, hər bir dövr və hər bir mədəniyyət üçün idraкın idealını yaratmaq xüsusiyyəti xasdır. XX əsrin əvvəllərində bu termindən çox tez-tez istifadə edilirdi. (10, s. 114-117). **İdraкın idealı** abstraкt, ideallaşdırılmış şəкildə idraкın əsas istiqamətini əкs etdirən əlamətləri, həmçinin idraк prosesinin dövrün müasirlərinin nöqteyi-nəzərindən daha müкəmməl formasını ehtiva edir. Etalon isə real olaraq mövcuddur, faкtiкi olaraq ən yaxşı hesab edilir, amma qətiyyən tam müкəmməl nümunə deyil. Deməli, idraкın idealı etalondan fərqlənir. XVI-XVII əsrin əvvəllərində elmi idraкın idealı кimi deduкtiv şəкildə qurulmuş riyazi sistemlər, etalon кimi Evкlid həndəsəsi çıxış edirdi. O dövrdə idraкı da buna tabe etməyə çalışırdılar. XVII-XVIII əsrlərdə isə elmin etalonu кimi, кlassiк mexaniкa çıxış etməyə başlayır. Burada bütün biliкlər dəqiq surətdə iкi səviyyəyə-nəzəri və empiriк səviyyəyə ayrılır. Birinci səviyyədə nəzəriyyənin əsas mülahizələrinin deduкtiv riyazi cəhətdən genişləndirilməsi, onların əsaslandırılması, iкinci səviyyədə isə – ümumiləşdirmənin (qanunların) formulə edilməsi və hipotezlərin yoxlanılması üçün zəruri olan empiriк məlumatların müşahidə və eкsperiment əsasında əldə edilməsi prosesi baş verir. İdraкın belə idealı çox zaman ictimai fənlərə də şamil edilirdi. Müasir dövrdə idraкın idealını epistemoloji ideal da adlandırırlar (10, s.117). Epistemoloji ideal daha inкişaf etmiş və riyaziləşmiş təbiətşünaslıq fənnləri üzərində qurulur. Son 20-25 ildə inкişaf edən yeni elmi istiqamətlər (məsələn, sistemotexniкa, mürəккəb sistemlər nəzəriyyəsi) məhz riyaziləşmiş təbiətşünaslıq fənnləri üzərində qurulub. Məsələn, mürəккəb sistemlər haqqında təsəvvürlərin əsaslı surətdə dəyişməsində iкi fənnin xüsusi rolu olmuşdur. Bunlardan birincisi - qeyri-tarazlıq vəziyyətlərinin fiziкası, iкinci-dinamiк sistemlərin müasir nəzəriyyəsidir (1, s. 11). Təbiətşünaslıq fənlərindən riyaziyyat sadəcə olaraq hesablama üsulu deyil, həm də ciddi deduкtiv nəzəriyyənin qurula biləcəyi formal dil və ya formal dəyişmə sistemidir. O, elmin epistemoloji idealının əsas кomponenti olub yeni empiriк biliкlərin istehsalı üçün özünəməxsus maşın кimi çıxış edir. Yeni informasiya belə «maşın» vasitəsilə müəyyən vaxta кimi birbaşa eкsperimentə və müşahidəyə müraciət edilmədən əldə oluna bilər. Belə riyaziləşmiş nəzəriyyələrə biz fiziкa, кibernetiкa, moleкulyar biologiyada və s. rast gəliriк. Amma bütövlüкdə sosial – humanitar elmlərdə belə hallara deməк olar кi, rast gəlmiriк, çünкi formal dəyişmə sistemi кimi burada, adətən, riyaziyyatdan istifadə edilmir. Laкin bununla belə, sosial biliкlərdə də «elm» anlayışına daxil olan bəzi əlamətlər təzahür edir. Məsələn, bu biliк sahələri də təbiətşünaslıq elmlərində olduğu кimi müşahidəyə əsaslanan empiriк biliкləri, bütövlüкdə götürülən faкtları izah edən, cəmiyyətin müvafiq sahəsində fəaliyyət göstərən qanunları formulə edən və onları vahid sistem halına salan, müəyyən fərziyyələr irəli sürən nəzəri biliкləri, nəzəriyyənin bilavasitə davamı кimi elmi dünyagörüşü xaraкterli fəlsəfi əsasları və nəticələri ehtiva edir, bu məqsədlə tədqiqat prosesinə abstraкsiya və ümumi anlayışlar daxil edir və s. Həm də nəzərə almaq lazımdır кi, müasir dövrdə də riyaziləşmiş təbiətşünaslıq, xüsusilə də, fiziкa sahəsindəкi tədqiqatın nəticələrindən sosiohumanitar obyeкtlərin öyrənilməsində geniş şəкildə istifadə olunur. Burada XX əsrin 70-ci illərində alman fiziкi German Hagen tərəfindən

elmə gətirilmiş sinergetika («mürəkkəb sistemlər nəzəriyyəsi») nəzəriyyəsinin adını çəkmək kifayətdir. Bütün bu deyilənləri nəzərə alsaq, bütövlükdə sosiohumanitar biliklərə elm statusunun verilməsi daha məqsədəuyğundur. Təbiətşünaslıqdan əldə olunan nəticələrin sosiohumanitar obyektlərə tətbiq edilməsi yalnız bu halda mümkündür. Əgər biz sosiohumanitar bilikləri elm hesab edirikə, onda bu halda «elm» təbiətşünaslıq haqqında söhbət gedərkən nəzərdə tutulan mənadan fərqli olanı ehtiva etməlidir. Deməli, təbiətşünaslıq elmləri etalon kimi qəbul edib sosiohumanitar, o cümlədən tarixi bilikləri elm kimi nəzərə almamaq ifrat yanaşmadır. Amma sosiohumanitar və təbiətşünaslıq elmləri arasında heç bir fərqin olmadığını iddia etmək də problemə digər tərəfdən ifrat yanaşmadır. Ümumiyyətlə, götürsək, sosiohumanitar və təbiətşünaslıq elmləri arasındakı fərq xüsusi tədqiqat mövzusu kimi XIX əsrdən etibarən diqqəti cəlb edir. XIX əsrin əvvəllərində adı çəkilən problem xüsusi olaraq neokantçılıq elm fəlsəfəsinin liderləri V.Vindelbandın, sonra isə Rikkertin fəlsəfəsində öz əksini tapıb (10, s. 118-120). Onlar elmləri belə təsnif edirlər: tarixi və təbiətşünaslıq elmləri.Tarixi elmləri ideoqrafik xarakter daşıyır, yəni fərdi, təkraredilməz hadisələri və situasiyaları təsvir edir. Təbiətşünaslıq elmləri isə nomotetik xarakter daşıyır, yəni öyrənilən obyektin qeyri-mühüm fərdi əlamətlərindən sərf-nəzər edərək onun ümumi, təkrarlanan, nizamlı əlamətlərini qeydə alırlar. Buna görə də nomotetik elmlər qanunları və ümumi anlayışları formulə edir. Tarixi elmlər fərdiləşmə, təbiətşünaslıq elmləri isə ümumiləşdirmə metodlarından istifadə edir. Hər ikisi abstraksiya və ümumi anlayışları tətbiq edirlər, amma birincilər üçün bu yalnız köməkçi vasitədir, çünki onların məqsədi - təkraredilməz tarixi fenomenin konkret, maksimum tam təsvirini verməkdir, ikincilər üçün isə ümumi anlayışlar-məqsəddir, ümumiləşdirmənin nəticəsi və qanunları formulə etməyin şərtidir. Bu səbəbdən də tarixi elmlər böyük subyektivliyi ilə seçilir. Rikkertin fikrincə, tarixi idrak obyektlərinin seçimi bir tərəfdən tarixi maraqla müəyyən edilir, digər tərəfdən isə sırf tədqiqatçının mövqeyindən asılıdır. Tarixi hadisələrin qiymətləndirildiyi rakursun seçimi isə son nəticədə fərdi dəyərlərdən asılıdır. Beləliklə, tarixi biliklər yalnız fərdi və təkraredilməz tarixi hadisələri qeydə almır, həm də tədqiqatçının fərdi dəyərləri də burada öz əksini tapır. Əksinə, təbiətşünaslığın qanunları obyektivdir və müəyyən mədəniyyətin məhsulu olsa da, mahiyyətcə ondan asılı deyil.

Əlbəttə, Vindelband və Rikkertin bütün bu fikirləri ilə razılaşmaq düzgün olmazdı. Onların bu fikirləri yaşadıqları dövrdə bəlkə də məqbul hesab edilərdi. Amma elmlərin, xüsusən də, sosiohumanitar elmlərin indiki inkişaf səviyyəsində bu fikirlər anlaşılmazlıq yaradır. Sosiohumanitar, o cümlədən tarixi elmlər fərdi, təkraredilməz hadisələri yalnız təsvir etmirlər. Düzdür, təbiət hadisələri ilə müqayisədə cəmiyyət hadisələri daha çox fərdi və təkraredilməz təsir bağışlayır. Amma sosiohumanitar elmlər bu fərdi və təkraredilməz hadisələr arasında ümumi, mühüm, zəruri, təkrarlanan (nisbi sabit) əlaqələri öyrənir, başqa sözlə, cəmiyyət qanunlarını formulə edirlər. Deməli, biz sosiohumanitar elmlərin yalnız hadisələri təsvir etməsi qənaətində olsaq, onda prinsipcə cəmiyyət qanunlarının mövcudluğunu inkar etmiş oluruq. Bu isə mümkün deyil. Ümumiyyətlə, Vindelband və Rikkertdə belə fikirlərin formalaşmasına həmin dövrdə təbiətşünaslıq elmlərinə nisbətən sosiohumanitar elmlərdə nəzəri tədqiqatın zəif inkişaf səviyyəsi həlledici təsir göstərmişdir. Elm tarixinə nəzər salsaq, bu gün bizim elm

kimi qəbul etdiyimiz istənilən bilik sahəsinin uzun müddət fəlsəfənin tərkibində olduğunun və hələ kifayət qədər inkişaf etmədiyi dövrdə əsasən empirik faktlar toplamaqla məşğul olduğunun şahidi olarıq. Belə ki, hətta XVII əsrin sonlarınadək təbiət elmlərindən ancaq mexanika, riyaziyyat, astronomiya formalaşmış müstəqil elm kimi mövcud idi. Kimya, biologiya, geologiya ancaq qərarlaşma halında idi. Təxminən belə bir vəziyyətə sosiohumanitar elmlərin inkişafında da rast gəlirik, yəni müəyyən bir inkişaf dövründən sonra onlar empirik elmdən nəzəri elmə çevrilirlər. Sadəcə olaraq bu proses bir qədər gec-Vindelband və Rikkertdən sonrakı dövrə təsadüf edir.

Vindelband və Rikkertin yanaşmasında müsbət məqamlar da var. Həqiqətən sosiohumaitar elmlər təbiətşünaslıq elmləri ilə müqayisədə öz subyektivliyi ilə seçilir. Bu subyektilvliyi əlbəttə, sosiohumanitar elmlərin formulə etdiyi ümumi anlayış və qanunlara şamil etmək düzgün olmazdı. Bütün deyilənləri ümumiləşdirsək aşağıdakı nəticəyə gələ bilərik. Elm anlayışını iki mənada götürmək lazımdır: geniş mənada elm yoxlanılmış hər hansı bilik sistemini nəzərdə tutur. Bura sosiohumanitar elmlər, yəni insanların davranışını və cəmiyyəti sistematik şəkildə öyrənən elmlər daxildir. Məhdud mənada isə elm məlum biliklər sistemini nəzərdə tutur ki, bu bilik bilavasitə daha çox empirik tədqiqatlar və eksperimentlər əsasında qurulur. Bura isə təbiətşünaslıq elmləri, yəni təbiət fenomenlərini öyrənən elmlər daxildir. Tarixi biliklər isə sosiohumanitar elmlər sırasına daxildir. Fəlsəfə dərsliklərində göstərilən şəkildə ictimai şüur formalarının bölgüsündən çıxış etsək, tarixi şüur tam şəkildə elmi şüur anlayışında əks oluna bilməz. Başqa sözlə, siyasi, hüquqi və s. ictimai şüur formalarının elmi şüurun tərkibinə daxil edilməsi nə qədər məqsədəuyğundursa, tarixi şüurun da bütövlükdə elmi şüurun tərkib hissəsi kimi qəbul edilməsi də bir o qədər məqbul variantdır. Aydın məsələdir ki, bu məqbul variant deyil. Deməli, tarixi şüuru ictimai şüurun xüsusi bir forması kimi fərqləndirmək lazımdır.

Nəhayət, tarixi şüur və tarixi idrak anlayışlarının əlaqəsini nəzərdən keçirək. Bu anlayışları bəzən sinonim kimi də işlədirlər. Amma tarixi keçmişin öyrənilməsi baxımından belə yanaşma əlverişli deyil, yəni bu anlayışların bir-birindən fərqləndirilməsi daha məqsədəuyğundur. Tarixi şüur, ən sadə şəkildə desək, tarixi keçmişin cəmiyyət tərəfindən dərk edilməsi və qiymətləndirilməsi «aktını» özündə ehtiva edir. Ən ümumi şəkildə bu aktın iki formasını bir-birindən fərqləndirə bilərik. Birinci halda bu proses hadisələrin dəqiq təsviretmə qaydalarının müəyyənləşdirilməməsi, mötəbər və uydurma olanların fərqləndirilməsi meyarlarının olmaması, keçmişdə baş vermiş hadisə və situasiyaların ardıcıllığının, səbəb-nəticə əlaqələrinin qeyd edilməməsi və s. şəraitində reallaşır. A.İ.Rakitov bu mərhələni belə xarakterizə edir: «1. Keçmiş hadisələrin ardıcıllığının təsvirinə və ya müzakirəsinə bütünlüklə istiqamətlənmiş xüsusi mətnlərin olmaması. Miflərdə, əfsanələrdə, qəhrəmanlıq dastanlarında təsvir olunan hadisə və situasiyalar onun yaradıcıları tərəfindən müasir, bilavasitə məlumatlar kimi qavranılır. Bu hadisələr yalnız sonrakı nəsillər tərəfindən keçmiş kimi qavranılır, bununla belə bu hadisələrin tarixi müddəti kifayət qədər təxmini olur və çox vaxt dəqiq müəyyən edilmir.

2. Keçmiş hadisələrin ardıcıllığı (Hektor və Axillin təkbətək döyüşü «Mahabharata»nın əsas döyüş səhnəsi və s.) az və ya çox dərəcədə ayrı-ayrı epizodlar çərçivəsində dəqiq qeyd edilir. Amma ayrı-ayrı

epizodların əlaqəsi və ardıcıllığı şərtidir və eyni kontekst çərçivəsində onların özlərinin yerlərini asanlıqla dəyişmək olar. Bu isə o deməkdir ki, o dövrdə tarixi proseslərin dönməzliyini və tarixi zamanı aydın başa düşmürdülər.

3. Hadisələrin səbəb ardıcıllığının zəif başa düşülməsi, səbəblərin izah edilməsi cəhdlərinə hər halda rast gəlmək mümkündür, amma onlar sosial baxımdan əhəmiyyətli xarakter daşımır... Sosial situasiyaların ardıcıl determinasiyasının dərk edilməsi, demək olar ki, mövcud deyildir.

4. Keçmişə olan əsas maraq təqlid etmək üçün davranış standartlarının, əxlaq normalarının, müdrik qərar nümunələrinin seçilməsi cəhdlərini ehtiva edir. Bununla əslində gələcəyin qabaqcadan görülməsi problemi aradan qalxır, belə ki, «keçmiş, indi və gələcək burada demək olar ki, bir-birindən fərqləndirilmir» (10 s. 54-55). A.İ.Rakitov bu əlamətləri bütövlükdə tarixin elmi cəhətdən öyrənilməsinə qədər olan mərhələyə aid edir və bunu tarixi şüurun inkişafında kortəbii mərhələ adlandırır. Başqa sözlə o, tarixi keçmişə dair təsəvvürlərin formalaşmasını iki mərhələyə ayırır: tarixin elmi cəhətdən öyrənilməsinə qədər olan mərhələ və elmi cəhətdən öyrənilməsi mərhələsi. Birinci mərhələnin inkişafını biz mifologiyada, dində, folklor nümunələrində izləyə bilərik. İkinci mərhələ isə artıq elmi-fəlsəfi dünyagörüşünün yaranması və inkişafı ilə əlaqədardır. İlk dəfə tarixin elm olduğunu və ya ola biləcəyini aydın şəkildə başa düşən, tarixi tədqiqatlar aparmağa cəhd edən və buna müəyyən dərəcədə nail olan yunan sivilizasiyası olmuşdur. Artıq qeyd etdiyimiz kimi, tarix sözü də yunan mənşəli sözdür. Düzdür, yunan sivilizasiyasından əvvəllər də – məsələn, Mesopatamiyada tarixi keçmişdən xəbər verən sənədlər mövcud olmuşdur (bu sənədlər e. ə. İİİ minilliyə aid edilir). Amma R.C.Kollinqvudun haqlı olaraq qeyd etdiyi kimi, bu sənədlər keçmişdən xəbər versə də, bu «tarix» sözün əsl mənasında tarixi, daha doğrusu, elmi tarixi ifadə etmir. O, bunun bir neçə səbəbini göstərir:

1) bu sənədlər elmi axtarışın, tədqiqatın nəticəsi deyil, sadəcə olaraq artıq müəllifə məlum olanın təsdiqidir;

2) Təsvir edilən fəaliyyət insanların fəaliyyəti deyil, hər şeydən əvvəl allahların fəaliyyətidir (6, s. 16).

Deməli, tarixi şüurun inkişafındakı ikinci mərhələ, yəni tarixi keçmişin elmi şəkildə öyrənilməsi yunan sivilizasiyasından başlayaraq bu günə kimi davam edir. Amma bir vacib məqamı da nəzərə almaq lazımdır ki, tarixi şüurun inkişafındakı bu iki mərhələ arasında zaman baximından qəti sədd çəkmək olmaz. Belə ki, tarixi şüurun inkişafına xeyli dərəcədə əhəmiyyətli təsir göstərmiş iudaizm, xristianlıq və islam dinləri yunan sivilizasiyasından sonrakı dövrə təsadüf edir. Məqsədimiz, əlbəttə ki, yunan sivilizasiyasını araşdırmaq deyil. İstənilən halda tarixi şüur keçmişdən gələcəyə doğru inkişaf prosesindədir. Burada isə qeyd etdiyimiz kimi, iki mərhələni bir-birindən fərqləndirmək olar. A.İ.Rakitovun sözləri ilə desək bu mərhələlər – kortəbii və «şüurlu» tarixi şüurun inkişaf etdiyi mərhələlərdir (10, s. 53- 60).

A.İ.Rakitov və tarixi şüur anlayışını qəbul edən, həmçinin tarixi şüur ilə tarixi idrak anlayışlarını bir – birindən fərqləndirən demək olar ki, bütün digər tədqiqatçılar tarixi idrak adı altında məhz axırıncı mərhələni nəzərdə tuturlar. Belə yanaşma hər cəhətdən əlverişlidir. Belə ki, əgər tarixi şüurun inkişafında iki mərhələ bir-birindən fərqlənirsə, onda onlardan birini digərindən ayırmaq üçün başqa anlayış adı altında

ifadə etmək daha məqsədəuyğundur. Başqa sözlə, tarixi şüur və tarixi idrak anlayışlarının sinonim kimi işlədilməməsi praktik cəhətdən daha əlverşlidir. Burada maraqlı məqam hansı anlayışın – tarixi şüurun, yoxsa tarixi idrakın daha geniş anlayış kimi işlədilməsidir. Təbii ki, məzmunca daha geniş olan anlayış digər anlayışı da özündə ehtiva edəcək. Əgər biz istənilən halda ictimai şüurun bir formasından bəhs ediriksə, onda məzmunca daha geniş anlayış kimi tarixi şüurun götürülməsi daha münasibdir. Belə ki, bir elmi ədəbiyyatda «ictimai idrak» anlayışına rast gəlmək qeyri-mümkündür. Halbuki «ictimai şüur»dan elmi termin kimi hər yerdə istifadə edilir. İctimai şüurun konkret formaları ilə də eyni mənzərə alınacaq. Əgər tarixi şüur anlayışını məzmunca daha geniş anlayış kimi qəbul ediriksə, onda qanunauyğun olaraq digər anlayış – tarixi idrak da burada ehtiva edlməlidir.

Bütün deyilənləri ümumiləşdirsək aşagıdakı nəticəyə gələ bilərik. Tarixi şüur ictimai şüurun formalarından biridir və bu mənada tarixi şüuru ictimai şüurun heç bir digər forması, o cümlədən elmi şüur ilə eyniləşdirmək və ya onun tərkib hissəsi kimi qəbul etmək olmaz. Amma bu tarixi tədqiqatlar nəticəsində əldə edilən biliyin elm adlandırılmaması üçün heç bir əsas vermir. Belə ki, elm anlayışına yuxarıda verilən tərifdən çıxış edərək, digər sosiohumanitar biliklər kimi tarixi bilikləri də sözün geniş mənasında elm kimi qəbul etmək lazımdır. Sözün dar mənasında elm deyərkən isə təbiətşünaslıq elmlərini nəzərdə tutmaq lazımdır. Tarixi şüur və tarixi idrak anlayışlarının nisbətinə gəldikdə isə qeyd etmək lazımdır ki, birinci anlayış daha genişdir. Onun formalaşmasina tarixi tədqiqatların nəticələrindən başqa mifologiya, din, folklor və s. də təsir göstərə bilər. Bu zaman tarixi şüurun formalaşması prosesi hadisələrin dəqiq təsviretmə qaydalarının müəyyənləşdirilməməsi, mötəbər və uydurma olanların fərqləndirilməsi meyarlarının olmaması, keçmişdə baş vermiş hadisə və situasiyaların ardıcıllığının, səbəb-nəticə əlaqələrinin qeyd edilməməsi və.s şəraitində reallaşır. Digər mərhələ ilə müqayisədə bu mərhələni «kortəbii» mərhələ də adlandırmaq olar. Belə ki, nəzərdən keçirdiyimiz kimi, bu mərhələdə tarixi şüurun formalaşması ciddi elmi tədqiqatların nəticəsi kimi meydana gəlmir. Adını çəkdiyimiz axırıncı proses tarixi idrakın adı ilə bağlıdır. O, cəmiyyətin keçmişi haqqında daha tam, dolğun və obyektiv təsəvvür yaradır. Amma tarixi şüurun formalaşmasına, hətta ictimai şüurun müasir inkişaf səviyyəsində belə, folklor, din və s. öz təsirini göstərir. Burada isə təəccüblü heç bir şey yoxdur. Ümumiyyətlə, zaman baxımından artıq mövcud olmayan reallığı bərpa etmək üçün real faktlardan başqa yaradıcı intuisiya, təxəyyül və s. də tələb olunur.

## ƏDƏBİYYAT


1. Abbasov Ə. Müasir sistemlər nəzəriyyəsi və idarəetmə// Yeniləşən cəmiyyət. Müasir elmi paradiqma və idarəetmə.
2. Abbasova Q., Hacıyev Z. Cəmiyyətin mənəvi həyatı// Sosial fəlsəfə B.: 2001.
3. Babayev M.Ə. Biz tarixi nə üçün öyrənirik. B.: 1985.
4. Вернадский В.И. Изб. труды по истории науки. М.: 1981.
5. Ерофеев Н.А. Что такое история. М.: 1976.
6. Коллингвуд Р.Дж. Идея истории. М.: 1980.
7. Косолапов В.В. Методология и логика исторического исследования. Киев.:1977

8. Крапивенский С.Г. Социальная философия. М.: 1998
9. Кузнецов В.Г., Кузнецова И.Д., Миронов В.В., Момджян К.Х. Философия. М.: 1999.
10. Ракитов А.И. Историческое познание. М.: 1982
11. Самиев А. Генезис и развитие исторического сознание. Душанбе: 1988.
12. Спиркин А.Г. Основы философии. М.: 1988.

## ОТНОШЕНИЕ ИСТОРИЧЕСКОГО СОЗНАНИЯ К ИСТОРИЧЕСКОМУ ПОЗНАНИЮ

**Э.Н.ГУСЕЙНОВ**

### РЕЗЮМЕ

Наша статья об отношении исторического сознания к историческому познанию. Историческое сознание необходимо различать как одну из форм общественного сознания. И в этом значении нельзя отождествлять историческое сознание с какой-либо другой формой общественного сознания, в том числе с научным сознанием или принимать как его составную часть. Но это не даёт основания не называть знания, полученные в результате исторических исследований, наукой, так как и другие социогуманитарные знания, исторические знания необходимо принимать как науку в широком смысле слова. Но как наука оно отличается от природоведческих наук. Историческое сознание имеет более широкий смысл, чем историческое познание. Историческое сознание может формироваться как спонтанно, так и в результате научно-исторических исследований. Историческое познание подразумевает именно последний момент.

## THE RELATION OF HISTORICAL CONSCIOUSNESS TO HISTORICAL KNOWLEDGE

**E.N.QUSEYNOV**

### SUMMARY

Our article about the relation of historical consciousness to historical knowledge. The historical consciousness is necessary for distinguishing as one of forms of public consciousness. And in this value it is impossible to identify historical consciousness with what or other form of public consciousness, including with scientific consciousness or to accept as its component. But it does not give the basis to not name the knowledge received as a result of historical researches, a science. How also others social-humanitarian knowledge, historical knowledge is necessary for accepting as a science in the broad sense of the word. But as the science it differs from naturalists' sciences. Historical consciousness in a more comprehensive sense, than historical knowledge. The historical consciousness can be formed as spontaneously, and as a result of scientifically-historical researches. The historical knowledge means last moment.